# 525-ci qəzet

17 iyul 2012-ci il, çərşənbə axşamı №125 (3681). Qiymətі 20 qəpik

www.525.az


## *Elmar Məmmədyarov:* "ATƏT-in Minsk Qrupunun fəaliyyətindən narazıyıq"

"BU GÜN MÜNAQİŞƏNİN HƏLLİNDƏ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ETİMADIN BƏRPA EDİLMƏSİ MÜHÜM YER TUTUR"

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun APA-ya müsahibəsi**

***— Azərbaycan diplomatiyasının uğurları və ölkəmizin dünyada imicinin yüksəlməsi ictimaiyyətimizi çox sevindirir. Bu səpkidə ölkəmizin beynəlxalq təşkilatlarla əməkdaşlığı xüsusi diqqət cəlb edir. Sizcə, Azərbaycanın bu gün beynəlxalq təşkilatlarla əməkdaşlığı və bu təşkilatlar çərçivəsində özünə məxsus dinamik rol oynaması ölkəmizin xarici siyasi kursunun uğurla həyata keçirilməsinin göstəricisidir? Qısa müddət ərzində biz buna necə gəldik?***

— Azərbaycan Respublikası bütün sahələrdə olduğu kimi xarici siyasətdə də böyük uğurlarını davam etdirdi. Müstəqil ölkə kimi Azərbaycan BMT, ATƏT, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlara üzv olub, mötəbər qlobal və regional təşkilatların işində fəal iştirakını və səmərəli əməkdaşlığını davam etdirib. Sonrakı illər ərzində isə ölkəmizin nüfuzlu və mötəbər beynəlxalq təşkilatlarda yer alması, vacib beynəlxalq tədbirlərə dəvət olunması və regionda, o cümlədən keçmiş SSRİ ölkələri sırasında ən çox yüksək səviyyəli xarici nümayəndə heyətləri tərəfindən ziyarət edilən ölkələrdən olması Azərbaycanın beynəlxalq arenada nüfuzunun xeyli artdığını və regionda liderə çevrildiyini göstərir.



Şübhəsiz ki, Azərbaycan diplomatiyasının tarixi uğuru 24 oktyabr 2011-ci il tarixində BMT Təhlükəsizlik Şurasına 2012-2013-cü illər üçün qeyri-daimi üzv seçilməsi olub.

*Ardı 3-cü səh.*

## Avropa Parlamentinin üzvü Qarabağa qanunsuz səfərə hazırlaşır

RƏSMİ BAKIDAN ETİRAZ GƏLDİ. İSRAİL SƏFİRİ VƏTƏNDAŞLARIN QARABAĞA SƏFƏRİNƏ MÜNASİBƏT BİLDİRDİ

"Azərbaycan bu məsələdə mövqeyi prinsipialdır. Azərbaycanın icazəsi olmadan işğal altında olan ərazilərimizə edilən istənilən səfər qanunsuzdur və bu cür qanunsuz səfər edən insanlar ölkənin suverenliyinə və ərazi bütövlüyünə qarşı hörmətsizlik etmiş olurlar". Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Elman Abdullayev Kiprli deputat, Avropa Parlamentinin üzvü Eleni Feokarousun erməni işğalı altında olan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə planlaşdırılan səfərini belə şərh edib.

O qeyd edib ki, Azərbaycanın işğal altında olan ərazilərinə qanunsuz səfər edən bütün şəxslərin adı arzuolunmaz şəxslər siyahısına daxil edilir.

Xatırladaq ki, Kiprdə nəşr olunan "Cyprus Mail" nəşrinin məlumatına görə, Kipr Vahid Demokratik Partiyasının nümayəndəsi, Avropa Parlamentinin üzvü Eleni Feokarous Azərbaycanın Dağlıq Qarabağ bölgəsində separatçı rejimin keçirməyə hazırlaşdığı qondarma "seçkiləri" izləmək çün Xankəndinə gedəcək.

Bu arada İsrailin Azərbaycandakı səfiri Mixail Lotem bu ölkədən olan turistlərin Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə səfəri ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib.



M. Lotem APA-ya bildirib ki, bu, şəxsi xarakterli səfər olub: "Həmin şəxslər İsrail hökumətinin mövqeyini əks etdirmir. İsrail XİN-in saytında Dağlıq Qarabağa səfər etməməklə bağlı vətəndaşlara ünvanlanmış xəbərdarlıq var. Həmin insanlar bu məsələ haqda məlumatlandırılıb".

Xatırladaq ki, bu yaxınlarda bir qrup israilli qadın turist Dağlıq Qarabağda olub.

## Ramazan ayı nə vaxt başlayır?

Azərbaycanda Ramazan ayının başlanmasını xəbər verən yeni ay (ayın təzələnməsi) iyulun 19-da Bakı vaxtı ilə saat 09.25 dəqiqədə görünəcək. Bu barədə APA-ya Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) N. Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının direktoru Əyyub Quliyev bildirib. Onun sözlərinə görə, Ramazan ayının başlanması ilə əlaqədar fətva Qafqaz Müsəlmanları İdarəsi tərəfindən veriləcək: "Bəzən belə deyirlər ki, guya ay mütləq gözlə görünməlidir. Amma ola bilər ki, hava buludlu olsun və Ay Günəşə çox yaxın olduğundan görünməsin. Biz astronomik dəqiqliklə yeni ayın təzələnmə vaxtını göstəririk".

Ə. Quliyev bildirib ki, Ramazan bayramı ilə bağlı Azərbaycan Nazirlər Kabinetinin 7 dekabr 2011-ci il tarixli 198 saylı sərəncamı var: "Bu sərəncama əsasən, 19-20 avqust tarixləri bayram günləri hesab edilir. Növbəti ay avqustun 17-də saat 20.55 dəqiqədə təzələnəcək".

## Prezident təməlqoyma mərasimində iştirak edib

Azərbaycan Prezidenti İlham Əliyev Hacıqabulda Şirvan-Muğan qrup su kəmərinin təməlqoyma mərasimində iştirak edib.

APA-nın məlumatına görə, dövlət başçısı Şirvan-Muğan qrup su kəmərinin planını və texniki göstəricilərini əks etdirən stendlərə baxıb. Dövlət başçısına məlumat verilib ki, Kür-Bakı su kəmərlərindən biri ilə nəql edilən su Hacıqabul, Şirvan, Salyan, Neftçala və Biləsuvar şəhərlərinin, həmçinin 121 kəndin tələbatının ödənilməsinə yönəldiləcək. Şirvan-Muğan qrup su kəmərinin istismara verilməsi ilə ümumilikdə, 470 min insan keyfiyyətli və fasiləsiz su ilə təmin olunacaq. Azərbaycan Prezidenti Şirvan-Muğan qrup su kəmərinin təməlini qoyub.

Dövlət başçısı mərasimdə çıxış edib. "Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov, Hacıqabul Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov, Şirvan şəhər 1 nömrəli lisey-məktəbin müəlliməsi Aynurə Rzayeva, Salyan rayon Qızılağac bələdiyyəsinin sədri Bünyad Yolçuyev çıxış edərək göstərdiyi diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq ediblər.

## Vaşinqtonda Azərbaycan–ABŞ məsləhətləşmələri

Gələn həftə Vaşinqtonda Azərbaycanla ABŞ arasında təhlükəsizlik məsələləri ilə bağlı məsləhətləşmələr keçiriləcək. Bu barədə APA-ya ABŞ-ın Azərbaycandakı səfirliyinin mətbuat xidmətindən məlumat verilib.

Azərbaycan və ABŞ nümayəndə heyətlərinin görüşündə təhlükəsizlik sahəsinə dair bir sıra məsələlərlə bağlı fikir mübadiləsi aparılacaq.

Məsləhətləşmələrdə iştirak etmək üçün Azərbaycandan Vaşinqtona geniş tərkibli nümayəndə heyətinin gedəcəyi gözlənilir.

## Döymə cinayətinə görə tutulanlar sentyabrın 1–dən azadlığa buraxılacaqlar

Prezident İlham Əliyev Cinayət Məcəlləsinə dəyişikliklər qanununu imzalayıb. İyunun 29-da qəbul olunmuş həmin qanunla Cinayət Məcəlləsinin 132-ci maddəsi İnzibati Xətalar Məcəlləsinə keçirilib. "Döymə" adlı 132-ci maddə altı ayadək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tuturdu.

"Media forum" saytı bildirir ki, 2012-ci il sentyabrın 1-dən qüvvəyə minəcək 29 iyun qanununa görə, Cinayət Məcəlləsinin 132-ci maddəsi ilə məhkum olunmuş şəxslər cəzadan azad olunurlar. Onlar, habelə qanun qüvvəyə minənədək Cinayət Məcəlləsinin 132-ci maddəsi ilə məhkum olunaraq cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilirlər.

Cəza çəkməkdən azad edilmə, cəzanın azaldılması, cinayət törətmiş şəxsin vəziyyətinin başqa cür yaxşılaşdırılması məsələlərinə cəzanı icra edən müəssisə və ya orqanın təqdimatı, ya da məhkumun ərizəsi əsasında hökm çıxarmış məhkəmə və ya məhkumun cəza çəkdiyi yer üzrə məhkəmə baxır.

Qanunun tətbiqi barədə prezident sərəncamına görə, Ədliyyə Nazirliyi 2012-ci il sentyabrın 1-dən təqdimatların verilməsini təmin etməlidir.

2012-ci il sentyabrın 1-dən 132-ci maddə ilə məhkəmələrin, ibtidai istintaq və ya təhqiqat orqanlarının icraatında olan cinayət işlərinə və materiallara cinayət məsuliyyətindən azad edilmə əsasları ilə xitam veriləcək və ya cinayət təqibinin başlanmasından imtina ediləcək və bu əməllərin inzibati məsuliyyətə səbəb olması məsələsi araşdırılacaq.

## Təbrizdən İrəvana aviareys açılacaq

İranla Ermənistan arasında Təbriz-İrəvan aviareysinin açılması planlaşdırılır. APA-nın İran mətbuatına istinadən məlumatına görə, bu barədə İranın Şərqi Azərbaycan vilayətinin ostandarı Əhməd Əlirza Beygi bildirib. Onun sözlərinə görə, Şərqi Azərbaycan əyaləti ilə Ermənistanın iki rayonu arasında əməkdaşlıq sazişi imzalanıb. Ə. Beygi əlavə edib ki, hazırda İranla Ermənistan arasında viza rejiminin ləğvi üçün də müzakirələr aparılır.

## *Əflatun Amaşov:* "Azərbaycanda internet media iqtisadi rentabellilik baxımından da özünü doğrultmaqdadır"

**Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşovun "Trend"ə müsahibəsi**



***— Son illərdə Azərbaycanda çox sürətlə internet mediası formalaşdı, daha doğrusu, ənənəvi mətbuatdan internetə çox güclü axın oldu və nəticədə bizim ölkəmizdə də internet mediası formalaşmağa və geniş vüsət almağa başladı. Bəs internet mediamızın inkişaf tempini necə qiymətləndirirsiniz?***

— Doğru qeyd etdiniz ki, son illərdə internet mediası sürətlə formalaşdı. Mən deyərdim ki, eyni sürət özünü müəyyən mənada onun inkişaf tempində də göstərdi. Ümumən hazırda rəsmi statistikaya görə, ölkədə internet istifadəçiləri əhalinin 65 faizini təşkil edir. Əlbəttə, ötən illərlə müqayisə bu rəqəmin özü də bəlli inkişafdan xəbər verir. Təbii ki, konkret yanaşsaq, məsələyə fərqli tərzdə münasibət bildirmək mümkündür. Çünki inkişaf dedikdə peşəkarlıq, məsuliyyət kimi kateqoriyalar nəzərdə tutulur. Bu mənada demək olmaz ki, internet mediası hansısa üstünlüyə malikdir. Medianın inkişafı əslində internetin ümumi inkişafının, bir növ, yedəyində gedən prosesə çevrilib. Yəni, birincinin sistemə özününkü olaraq təklif etdiyi çox az şey var. Yəqin məhz buna görədir ki, statistik rəqəmlər Azərbaycanda ən çox xarici saytların izlənildiyini göstərir — Facebook, Google, Youtube və başqalarının.

Azərbaycanda 50-yə yaxın daha çox izlənilən saytı fərqləndirmək mümkündürsə, bunlardan 23-ü özümüzə aiddirsə və həmin 23-dən də 16-sı xəbər saytıdırsa, demək, mövcud istiqamətdəki durum hələ heç də yaxşı deyil. Əlbəttə, 23-dən 16-sının məhz internet mediası təmayüllü olmasını vurğulamaq lazımdır. Bu, o deməkdir ki, xəbərçilik strukturu internetin inikşafının təbiəti ilə, necə deyərlər, həmahəngdir. Mövcud məqam gələcəyə daha nikbin baxmağa əsas verir.

*Ardı 2-ci səh.*



Şakir YAQUBOV



Yaddaşımın küncündən

# Kollegiya iclası yarımçıq qaldı...

Vallah-billah, heç kimlə işim yoxdur, oxuyacağınız bu kəlmələrlə heç kimin nəinki bostanına daş atmaq, ümumiyyətlə, bir kimsənin toyuğuna da "kişş" demək niyyətində deyiləm. Sadəcə, olanı söyləyirəm, özü də yaddaşımın küncündə ilişib qalanlardan...

+++

Ötən əsrin səksən səkkizinci ilinin mayında "hər şeyə qadir" "Politbüro" heç kimin xətrinə dəyməmək üçün eyni vaxtda həm Bakıda və həm də İrəvanda hakimiyyətin ali mərtəbəsində dəyişiklik elədi, hər iki "müttəfiq respublika"da birinci şəxs kreslosunu keçmiş komsomol liderlərinə həvalə etdi. Beləliklə, Azərbaycanda az qala gün hesabı ilə düz 20 ay çəkən Əbdürrəhman Vəzirov hakimiyyəti başlandı (o biri tərəf indi itimə də gərək olmadığı üçün onun barəsində söz açmağı artıq hesab edirəm).

Köhnə komsomolçu, köhnə "Kirovabadın birincisi" və köhnə "sovet diplomatı" Bakıdakı "müşavirləri"nin məsləhəti ilə bir neçə orijinal iş gördü ki, onlardan da biri özündən aşağı bütün vəzifə sahiblərinin telefon nömrələrinin xalqa bəyan edilməsi (məsələn, qəzetlərdə dərc etdirilməsi) oldu.

Həmin 20 aylıq "aşkarlıq" dövründə xeyli insanın hansısa dərdini harayasa çatdırmaq, hansısa problemini həll eləmək üçün bəyan olunan telefon nömrələrindən bəhrələndiyi danılmazdır. Şəxsən mənim isə hansısa işdən ötrü o telefonlardan istifadə elədiyim yadıma düşmür, çünki... onda mən qəzet işçisi idim, 4 və ya 3 nömrəli hökumət telefonlarına malik olmasam da, mobil telefonlar hələ məişətimizə daxil olmasa da, sadəcə, abır-həya, hörmət-izzət var idi, heç bir telefon sorğu-məlumat bürosunda heç bir vəzifə adamının telefon nömrəsi gizli saxlanılmırdı və istənilən vaxt istənilən nömrəni əldə edərək istənilən nömrəyə zəng vurub istənilən məqam sahibi ilə danışa, maraqlandığın hansısa məsələ barədə məlumat ala və hətta şəxsi işindən ötrü xahişini də çatdıra bilərdin.

Çox səciyyəvi olan bir əhvalat yadıma düşür.

Gərək ki, 1986-cı ilin yayı idi, onda mən "Azərbaycan gəncləri" qəzeti redaksiyasında işləyirdim. Hansısa idarə nəşrində baş girləyən bir həmkarımız yanıma gəlib "filan nazirlikdə" sanballı bir yerin boşaldığını və həmin yerə keçmək iddiasında olduğunu bildirdi. "Mənim rolum nədən ibarətdir" deyə soruşanda qətiyyətlə məsələnin həllinin mənim... nazirə bircə zəngimdən asılı olduğunu bildirdi. Heç vəchlə onu bu xam xəyaldan daşındıra bilmədim, üstəlik də məsələnin, deməli kimi, mənim zəngimlə heç cür həll oluna bilməyəcəyini ona qandırmaq istədim. Əl çəkmədi, "Sən onunla iki qəzet səhifəsi boyda intervyu veribsən, bu xahişin həmin müsahibənin yanında heç nədir" dedi.

Bəli, belə bir müsahibə olmuşdu, həm də bu, adi müsahibə yox, o vaxtkı sovet mətbuatı üçün təzə janr olan telefonla "Birbaşa əlaqə" — oxucu müsahibəsi idi və belə müsahibənin subyektləri də birbaşa "SeKa"nın himayəsindəki yüksək vəzifəli şəxslər olardı; belələri ilə canlı ünsiyyətdə olmağın özü konkret jurnalist üçün "plyus" sayılırdı...

"Həmkar"ın inadkarlığı qarşısında sınmaq yox, dediklərimin doğru olduğunu sübut eləmək üçün onun yanındaca redaksiya telefonundan həmin nazirə zəng vurdum. Təbii ki, köməkçisi cavab verdi, ədəblə "Hazırda bizdə kollegiya iclası gedir, qurtaranda zəng vurduğunuzu nazirə çatdıraram" dedi. "Kollegiya iclası nə vaxt bitir" deyə soruşdum. "Saat bir üçün bitəcək"...

Sağollaşıb dəstəyi yerinə qoydum və... düz saat 1 üçün "həmkar"ın "Jiquli"si ilə özümüzü nazirliyə yetirdik.

Qəbul otağına daxil olanda köməkçi iclasın hələ bitmədiyini və "zəhmət olmasa, bir-iki dəqiqə gözləməyi" söylədi... ikimizi həyəcanlı meşin qapının arxasındakı iclas salonuna keçdi.

Heç bir dəqiqə ötməmiş qapı taybatay açıldı və nazir yoldaş — havanın istisindənmi, içəridəki müzakirələrin gərginliyindənmi — pörtmüş halda çölə çıxıb bizə doğru yeridi. Hər ikimizin əlini sıxdı, iclasın uzanmasına görə üzr istədi, "Fasilə elədik" deyib bizi özünün iş otağına dəvət elədi.

Hərəyə bir stəkan çay içdik, xahişimi dinlədi, "iddiaçı"nı tanıdığını, amma boşalan yerə uyğun gəlmədiyini bildirdi, ayrı bir xahişimi can-başla yerinə yetirəcəyini söyləyib bizimlə xudahafizləşdi...

...Təbii ki, "iş sosiskada deyil, vnimatelni olmaqdadır". Mən də bu barədə yazdım. Bir daha deyirəm: məsələnin nə yerdə olduğunu bilməyə-bilməyə, adi bir qəzetçiyə görə nazir kollegiya iclasını yarımçıq dayandırdı və bizi dinlədi.

Bilmirəm, belə işlər indi də olurmu? Məsələn, mən — İKİ DƏFƏ bu ölkənin "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüş yeganə (!!!) jurnalist indi həmin nazirliyin, sadəcə olaraq, həndəvərindən keçə bilərmi?!

P.S. O naziri və nazirliyi isə sormayın. Ən azı sovet illərində və elə indi də hakimiyyət iyerarxiyasında ön sıralarda olan qurumdan və onun son vaxtlara qədər yüksək məqam sahibi olan başçısından danışırdım. Yaddaşımın bir küncündə ilişib qalan bir əhvalatdır bu. Həm də yeganə deyil...

**İyun 1986 — iyul 2012**

# Əflatun Amaşov: "Azərbaycanda internet media iqtisadi rentabellilik baxımından da özünü doğrultmaqdadır"

*(Əvvəli 1-ci səh.)*

***— Xəbər saytlarında da çap mediası kimi monitorinqlər aparılır, onlardan həmişə "jurnalist peşəkarlığı" tələb olunur, "jurnalistlərin peşə etikası" sözsüz ki, onlara da aid edilir, həmçinin KİV haqqında qanun da. Deməli, internet sektoru həm də KİV-dir, mətbuatdır. Amma internet bütün dünyada azad, sosial məkan kimi qəbul edilir. Bu mənada, sizcə, virtual internet məkanında qanunlar tətbiq edilməlidirmi? Yəni, internet mediası mətbuatdır, yoxsa, azad sosial şəbəkədir?***

— Olduqca maraqlı və əslində polemikalara yol aça biləcək məqama toxunursunuz. Mövzu təkcə respublikamız üçün aktual deyil. Dünyanın hər yerində məsələ ətrafında müzakirələr gedir. Hətta hərdən elə təəssürat yaranır ki, internet, bir növ, ilahiləşdirilməkdədir. Yəni, bu sistemə "toxunmaq olmaz" kimi mülahizələr qabardılır. Təbii ki, "toxunmaq olar" deyənlər heç də o fikirdə deyillər ki, interneti məhdudlaşdırmaq lazımdır və ya onu hansısa sanksiyalara məruz qoymağa ehtiyac var. Sadəcə, tənzimlənmənin zəruriliyini bildirirlər. Bu isə əslində cəmiyyətin sosial sifarişi kimi meydana çıxır. Elə həmin internet media sahibləri özləri bir yerə toplaşaraq sifarişin dəyərləndirilmə yollarını nəzərdən keçirirlər. Çünki bundan onların gələcək mövcudluqları asılıdır. Məsələyə tam olaraq şüurlu şəkildə yanaşılır.

Məsuliyyət kateqoriyası birmənalı şəkildə qanunlardan asılı olmaya bilər. Əksinə, bəzən, qanunla tənzimlənmə müəyyən fəsadlara da yol açır. Digər tərəfdən, qanun təbiətcə fundamental yüklü olmalıdır. Konkret internet mediasında diqqətçəkən hansısa hadisəyə nəzərən qanun qəbul edilsə, təbii ki, bu, müsbət qarşılanmayacaq. Məncə, mövcud məkana kompleks yanaşmaq lazımdır. Onu daha dərindən, həm müəyyən mənada yerli şəraitin tələbləri, həm də beynəlxalq təcrübə nəzərə alınmaqla öyrənmək, ictimai maraqları tam şəkildə ayırd etmək və uzlaşdırmaq lazımdır.

Digər tərəfdən, siz "azad sosial şəbəkə" ifadəsini işlətdiniz. Azad olan prinsipcə təkcə internet mediası deyil, digərləri də həmin statusdadırlar. Burada söhbət sərbəstlikdən, ən əsası isə məsuliyyətdən gedir. Sərbəstliyə gəlincə, bəli, hazırda xəbər resursları, deyək ki, ənənəvi KİV-lər kimi müxtəlif vergi ödənişlərindənmi və sair bu kimi tələblərdənmi uzaqdırlar. Məsuliyyətə gəldikdə eynilik var. Az öncə məsuliyyətin təminatçısı qismində təkcə qanunların çıxış etmədiyini qeyd etdim. Nəzərə alsaq ki, məsuliyyəti formalaşdıran həm də qanunlardır, o zaman konkret olaraq internet mediasının hüquqi cəhətdən tənzimlənməsində belə problem yoxdur. Sadəcə, məsələyə yanaşma var. Bu da zənnimcə, hansısa məqamda şüur məsələsidir. Kimsə istəyirsə ki, internet qanunla tənzimlənməsin və mövcud hal onun məsuliyyətsizliyi üçün plasdarm versin, bu, yolverilməz baxışdır. Təbii ki, qanundan yararlanaraq hansısa inzibati amirlik sistemini formalaşdırmağı düşünənlərin də nəzərləri məqbul dəyərləndirilə bilməz. Hər bir halda KİV-in, yəni cəmiyyətə dəqiq, qərəzsiz, tərəfsiz informasiya çatdıran qurumun azadlığı və müstəqilliyi konsepsiyası qorunmalıdır.

***— İnternet şəbəkəsinin günügündən genişlənməsi qarşısıalınmaz bir prosesə çevrilib. İnternet mediasının "hegemonluğu" Sizi, çap mətbu orqanlarının qurumu olan Mətbuat Şurasını narahat etmir ki? Sadə dildə desək, bu işlərin axırı necə olacaq sizcə?***

— Mətbuat Şurası media-ictimaiyyət, media-hakimiyyət münasibətlərini tənzimləyən təşkilatdır. Onun qayəsində bir qədər öncə haqqında söz açdığım jurnalist məsuliyyətinin qorunması prinsipi dayanır. İnanıram ki, indiki vəziyyət 9 il əvvəl olsaydı, Şuranın təsisçiləri sırasında internet xəbər resurslarının sayı daha çox olacaqdı. Ola bilər, qurumun adı bilavasitə Mətbuat Şurası adlanmazdı, amma funksiya, zənnimcə, dəyişməyəcəkdi. Düşünürəm ki, hazırkı vaxtda tənzimləyici missiyaya ehtiyac artır. Çünki ənənəvi mediaya nisbətən internet mediası üçün ictimai nəzarət daha vacibdir. Həm də ona görə ki, birincinin məsuliyyət kateqoriyasının dəqiqləşdirilməməsi təsadüfi simalar üçün daha geniş "imkanlar" verir. Nəzərinizə bir faktı çatdırım: Mətbuat Şurasının "qara siyahı"sında yer alan KİV-lərin bəzisi artıq internet üzərindən yayımlanır və əvvəlki yarıtmazlıqlarını davam etdirirlər. Şuraya beləlləri, ümumən peşə fəaliyyətini pozan digər internet xəbər resursları ilə əlaqədar da çoxsaylı müraciətlər daxil olmaqdadır. Bizi narahat edən budur, nəinki internet mediasının ənənəvi KİV-ləri üstələməsi ilə bağlı təbii proses.

İkinci halda söhbət axından gedir. Güman edirəm ki, ona qarşı durmağa kimsənin gücü çatmaz. Bütün dünyada nüfuzlu media qurumları internet yayıma keçirlər.



Proses Azərbaycan üçün də xarakterikdir.

Azərbaycan Mətbuat Şurasının iş prinsipinə gəldikdə isə, qurum ayrı-ayrı vətəndaşların internet mediası ilə bağlı müraciətlərini də araşdırır və özü üçün başlıca məsuliyyət etalonu sayılan "Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydaları"na uyğun olaraq qərar və rəylər çıxarır. Təbii ki, sahənin spesifikliyini də nəzərə alırıq. Bunun üçün sırf internet mediası ilə əlaqədar şikayətlərin araşdırılması üçün İdarə Heyətinin üzvlərindən ibarət xüsusi məşvərət qrupu da formalaşdırmışıq. Həmin qrup konkret şikayət faktını daha dərindən təhlil edir. Yenə də deyirəm ki, əsas məsələ ictimai əhəmiyyətlilik faktorudur. Mövcud mənada fərqi yoxdur harada baş verir — qəzetdə, yoxsa internet xəbər orqanında — hansısa vətəndaşın hüquqları pozulursa, buna zəruri adekvat reaksiya verilməlidir.

Üçüncü bir məsələ cəmiyyət üçün vacib olan dəyərlərin, birgəyaşam qaydalarının qorunub saxlanmasıdır. Söhbətimizin əvvəlində statistikaya təsadüfən müraciət etmədim. Ən çox izlənilən 23 saytdan 16-sı xəbər təmayüllüdürsə, burada pozitiv məqam ondadır ki, əslində jurnalistika internet məkanını haradasa ələ almağı bacarıb. Amma gəlin, ona da nəzər salaq ki, ölkəmizdə kifayət qədər mənasız, deyərdim ki, mənəvi normalarımıza zidd saytlar da fəaliyyət göstərməkdədir. Düşünürəm ki, bir toplum olaraq belə xoşagəlməzliklərə münasibətdə müqavimət hissimizin formalaşması zəruridir. Burada da medianın bütöv bir orqanizm kimi vəhdət nümayişi isə danılmazdır.

***— Yəqin ki, özünüz də internet mediasının oxucususunuz. Bu resurslar özünü və adını doğrulda bilirmi?***

— İnternet gündəlik həyatımıza nüfuz etdiyi kimi, internet mediası da günümüzün ayrılmaz tərkib hissəsinə çevrilib. Təbii ki, hər gün hələ işə gəlməmişdən öncə aparıcı internet xəbər resurslarının, demək olar, hamısına göz gəzdirirəm. Gün ərzində də onlardan ayrılmaq olmur.

Azərbaycanda internet mediası tək mənəvi cəhətdən deyil, həm də iqtisadi rentabellilik baxımından özünü doğrultmaqdadır. Hazırda aylıq gəliri 50-100 min arasında dəyişən xəbər portalları mövcuddur. Qısa zaman ərzində buna nail olmaq sıradan məsələ sayıla bilməz. Güman edirəm ki, vaxt keçdikcə daha müsbət proseslərə şahidlik edəcəyik.

***— İnternetdə reklamların həcmi ilə bağlı birmənalı rəylər yoxdur. Qəzetlər də bu məsələdə şikayətçidirlər, internet saytları da hesab edirlər ki, hazırkı reklam həcmi mövcud potensialın hamısı deyil. Sizcə, media üçün gəlir mənbəyi olan reklamlar niyə saytlara güclü axın etmirlər? Axı internet məkanı reklam üçün ən yaxşı bazardır...***

— Qeyd etdiyiniz məsələlər KİV təmsilçilərinin Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdiri cənab Əli Həsənovla ötən ayın sonunda Mətbuat Şurasında baş tutan görüşündə də səsləndi. Müəyyən təkliflər də irəli sürüldü.

Ümumən KİV-lərlə nisbətdə media portallarının mövcud istiqamətdəki vəziyyəti arasında kifayət qədər fərq var. İkincilər reklam verənlər üçün cəlbedicidirlər. Görüşdə daha çox ayrı-ayrı hüquqi və fiziki şəxslərin, sahibkarlıq subyektlərinin nəyə görə ənənəvi mediaya maraq göstərməmələri üzərində dayanıldı. Bunu yaradan problemlər içərisində yayımın düzgün həyata keçirilməməsi, satış nöqtələrinin azlığı və sair məsələlər vurğulandı.

Digər tərəfdən isə, yaddan çıxarmaq olmaz ki, reklam problemi ümumi səciyyə daşıyır. Təbii ki, hansısa iş adamına öz məhsulunun reklamını harada yerləşdirməsi ilə bağlı göstəriş verilə bilməz. O, sərbəstdir və fəaliyyətini qanunvericiliyin tələbləri çərçivəsində qurur. Ənənəvi medianın bütün dünyada müşahidə edilən durğunluğu şəraitində yaşayırıqsa, bu hal hansısa sahibkarı məncə, o qədər də maraqlandırmamalıdır. Əsas olan onun məhsulunun təbliğidir. Təbii ki, 1000 nüsxə tirajı olan qəzetdənsə, 50 min oxucuya malik sayt daha əlverişlidir. Həmin şəxs 1000 oxucusu olan internet xəbər portalına da reklam verməz təbii ki.

Görüşdə əsas təkliflərdən biri də dövlət reklam və elanlarının KİV-də yerləşdirilməsi mexanizminin tətbiqi ilə bağlı idi. Məlum olduğu kimi, Mətbuat Şurası bu istiqamətdə Türkiyənin Basın Yayın və Elan Qurumunun təcrübəsini öyrənib. Təkliflər sırasında bu məsələyə baxılması da əsas yer tuturdu.

"Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununda açıq tenderin keçirilməsi barədə elanın respublikanın dövlət qəzetlərində verilməsinə dair müddəa yer alıb. Tədbir iştirakçıları mövcud status-kvonun aradan qaldırılması ilə əlaqədar da təklif irəli sürdülər. Düşünürəm ki, bu və bu kimi məsələlərin gerçəkləşməsi ilə tənzimləyici, konkert desək, dövlətin tənzimləyici roluna ümid etmək və gəlirləri artırmaq mümkündür.

***— İnternet resurslarının ortaq problemlərini, reklam gəlirləri, təhlükəsizliyi, reytinqi, inkişafı, monitorinqi və s. məsələlərin həllini öz üzərinə götürə biləcək bir qurum yaradıla bilərmi?***

— Təbii ki, belə bir strateji işin həyata keçirilməsi vacibdir. Əslində Mətbuat Şurası tərəfindən irəli sürülən təşəbbüsün məğzində də bu cəhət dayanır. Söhbət Türkiyənin Basın Yayın və Elan Qurumunun təcbürəsinin ölkəmizdə tətbiqindən gedir. Qurum təkcə vurğuladığınız məsələləri deyil, eyni zamanda dövlət elan və reklamlarının bərabər bölgüsünü də reallaşdırır. Ümumən bu prosesin baş tutması vacibdir. Təbii ki, ayrıca təşkilatın vasitəsilə gerçəkləşdirilməsi daha məqsədəuyğun olardı.

Ümumən internet mediasına dair məsələdə geniş müzakirələrin təşkili, hər bir detalın nəzərə alınması vacibdir. Mətbuat Şurası bu zərurəti dəyərləndirərək sabah, yəni iyulun 17-də Avropa İttifaqı, Avropa Şurası, ATƏT-in Bakı Ofisi və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi ilə birgə Bakıda "Ənənəvi KİV-dən on-line mediaya keçid" mövzusunda beynəlxalq konfransın təşkilini planlaşdırır. Tədbirdə KİV rəhbərləri və ekspertlərlə yanaşı, xarici media mütəxəssisləri, beynəlxalq jurnalist qurumlarının təmsilçiləri iştirak edəcəklər. Toplantıda sözügedən mövzu ilə əlaqədar dünya standartları, aktual problemlər, onlayn media azadlığı ilə bağlı qanunvericilik təşəbbüsləri, sosial media və sosial şəbəkələrin fəaliyyət xüsusiyyətləri və sair bu kimi məqamlar ətrafında geniş diskussiyalar açılacaq. Güman edirəm ki, konfransdan faydalı nəticələr əldə edə biləcəyik.

# Sergey Lavrov: "Biz Bəşər Əsədi dəstəkləmirik, ondan silahlı müqaviməti dayandırmağı tələb edirik"

## "RƏSMİ MOSKVANIN YEGANƏ İSTƏYİ SURİYADA SABİTLİYİN BƏRQƏRAR OLMASIDIR"

"Rusiya bir daha bəyan edir ki, Suriya konfliktinin həll yolu Annan planının həyata keçirilməsidir". APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bu fikirləri Rusiya xarici işlər naziri Sergey Lavrov bu gün keçiridyi brifinqdə bildirib. O, Kofi Annanın bu gün ikinci dəfədir ki, Rusiyaya səfər etdiyini söyləyib: "Bu onu göstərir ki, Rusiya Annan planını dəstəkləyir və konfliktin yeganə həll yolunu bu planının həyata keçirilməsində görür. Suriyada baş verənlər dəhşətdir. Çoxlu sayda insanlar ölür. Dərhal buna son qoyulmalıdır, Bəşər Əsəd dinc əhalinin qırğınına son qoymalıdır. Biz Cenevrədə əldə etdiyimiz razılığın həyata keçirilməsinin tərəfdarıyıq. Lakin Qərb ölkələri bunun əleyhinə çıxıblar. Biz BMT sülhməramlılarının Suriyada vəziyyətin stabilləşməsində mühüm rol oynaya biləcəyinə inanırıq. BMT-nin izləyici missiyasının fəaliyyətinin davam etdirməsinin tərəfdarıyıq".



S. Lavrov Suriya konfliktində heç bir tərəf tutmadıqlarını söyləyib: "Rəsmi Moskvanın yeganə istəyi Suriyada sabitliyin bərqərar olmasıdır. Biz Əsəd rejimindən də silahlı müqaviməti dayandırmağı tələb edirik. Bir daha qeyd etmək istəyirəm ki, biz Əsədi dəstəkləmirik. Biz BMT Təhlükəsizlik Şurasının qətnaməsini, Annan planını və Cenevrə kommunikesini dəstəkləyirik".

# Azərbaycan Kinomotoqrafçılar İttifaqında kütləvi istefalar

Azərbaycan Kinematoqrafçılar İttifaqının bir qrup (AKİ) üzvü qurumu tərk ediblər. Bu barədə "Trend" məlumat yayıb. Qurumu tərk edənlər aşağıdakılardır:

1. Ramiz Fətəliyev — Əməkdar İncəsənət Xadimi, Dövlət Mükafatı Laureatı, Prezident Təqaüdçüsü
2. Tariel Qasımov — Xalq artisti, Prezident Təqaüdçüsü
3. Natiq Rəsulzadə — Əməkdar İncəsənət Xadimi, Şöhrət Ordenli
4. Ələkbər Muradov — Əməkdar İncəsənət Xadimi
5. Yavər Rzayev — Əməkdar İncəsənət Xadimi
6. Ənvər Əbluc — Əməkdar İncəsənət Xadimi
7. Tağı Babayev — Əməkdar Mədəniyyət İşçisi
8. Əziz Məmmədov — Əməkdar Mədəniyyət İşçisi
9. Faiq Əliyev — Kino təşkilatçısı
10. Hafis Fətullayev — Kinorejissor

Azərbaycan Kinematoqrafçılar İttifaqının katibi Əsəd Əsədov müxtəlif bəhanələrlə ərizələri qəbul etməkdən imtina etsə də, ərizələrin verilməsi davam etməkdədir.

# DəmirBank-ın 3 müştərisi Western Union üzrə aksiyada xaricə səyahət paketi qazanıb

DəmirBank-ın 3 müştərisi Western Union sisteminin keçirdiyi "Heyrətləndirici dünya!" kampaniyasında xaricə səyahət paketi qazanıb.

Azərbaycanın bir sıra banklarının qoşulduğu kampaniyanın 1-ci tirajında 5 qalib müəyyən edilib, bunlardan da 3 nəfəri DəmirBank-ın müştərisi olub. Qaliblər seçdikləri istənilən ölkəyə turist paketi və ya hədiyyənin məbləğini nağd şəkildə əldə edə bilərlər.

Ümumilikdə 2 tirajdan ibarət kampaniyanın növbəti — sonuncu tirajı 21 sentyabr 2012-ci il tarixində keçiriləcək. 2-ci tirajda da 5 müştəri 1000 AZN dəyərində xaricə səyahət paketi qazanacaq. Lotereya aksiyası kuponlar vasitəsilə həyata keçirilir və bu kuponlar 2 hissədən ibarətdir. Bir hissəsi müştəridə, digəri isə lotereyada iştirakı təmin etmək üçün əməliyyatçıda qalacaq.

DəmirBank-ın hazırda Bakı və regionlarda 31 filialı təcili pul köçürmə xidmətlərini göstərir. Ölkənin müxtəlif şəhərlərində müvafiq olaraq Gəncə, Sumqayıt, Şəki, Zaqatala, Yevlax, Bərdə, Qazax, Şəmkir, Quba, Qusar, Göyçay, Ağdaş, Ağsu, Şamaxı, Lənkəran, Masallı, Sabirabad və İmişli filialları fəaliyyət göstərir.

Bankın pul köçürmə xidmətləri və kampaniyaları barədə www.demirbank.az saytından və ya 149 nömrəsinə zəng etməklə müştərilər ətraflı məlumat əldə edə bilər.

# "UNİBANK" dünya birjalarında ticarəti daha əlverişli edir

"Unibank" müştərilərinə dünya birjalarında valyuta ticarətin aparılması üzrə yeni xidmətini təklif edir. Bankın yeni uniforex xidməti çoxfunksional "Unibank Trading Station" proqram platforması vasitəsi ilə İnternetdə on-layn rejimində dünya valyutaları ilə sərbəst əməliyyatlar keçirilməsinə imkan verir.

Bu gündən etibarən "Unibank" müştərilərinə 100-dən artıq valyuta cütlüyü üzrə həm real, həm demo-ticarət aparmağa təklif edir. Bu zaman bir neçə maliyyə bazarlarında və birjalarda əməliyyatlar bir vahid hesabdan və ən əverişli qiymətlər üzrə keçirilə bilər. Nəticə olaraq, uniforex xidmətindən yararlanan müştərilərdə potensial mənfəət qazanmaq imkanları da artır. Xidmətə qoşulmaq üçün "Unibank" filiallarından birində minimal məbləği $300-an az olmayan cari depozit hesabı açdırmaq kifayətdir. Bu təqdirdə hər bir müştəri FOREX bazarında ilkin mədaxil məbləğindən qat-qat çox həcmlərdə istədiyi valyutalar ilə iəməliyyatlar apara bilər.

Hesab açdıraraq və "UnibankTradingStation" platformasını yükləyərək, hər kəs bu proqramın interfeysini öz tələbatlarına uyğun dəyişmək, lazımi qiymətlərin monitorinqini aparmaq və bazarların icmalları ilə operativ tanış olmaq imkanında olacaq. Bundan başqa, Bank xüsusiwww.uniforex.azsaytı vasitəsi ilə müştərilərə müvafiq məlumatların təqdim edilməsi və texniki dəstək xidmətləri göstərir. Qeyd etmək lazımdır ki, uniforex hesabları üzrə vəsaitlərin çıxarılması tezliklə vəhər-hansı komissiyalarının ödənilməsi aparılmadan keçirilir.

Bankın uniforex xidmətinə qoşulmaq barədə əlavə məlumatı (012) 117 telefon nömrəsi üzrə əldə etmək olar.

# 6 ay ərzində "Azəriqaz"ın" "Qaynar xətt"inə 6879 müraciət daxil olub

2012-ci ilin birinci yarısında "Azəriqaz" İstehsalat Birliyinin 185 nömrəli "qaynar xətt""inə 6879 müraciət daxil olub. "Azəriqaz"dan verilən məlumata görə, müraciətlərin əksəriyyəti Bakı və Sumqayıt şəhərləri, Abşeron rayonu, 111-i isə regionlarda yaşayan vətəndaşlar tərəfindən edilib.

Ümumilikdə "qaynar xətt""ə Bakı şəhəri, Abşeron və Sumqayıt üzrə 6768 müraciət daxil olub ki, onlardan da 3960-ı və ya təqribən 59 faizi qaz sayğaclarının koda düşməsi ilə bağlı olub. Təbii qazdan istifadəyə görə yaranmış borcun araşdırılması ilə bağlı 840, qazın təzyiqi ilə əlaqədar 172, qaz xətlərində nasazlıqlarla bağlı isə 227 zəng qəbul edilib. 75 müraciət kartın sayğaca yüklənməsi, 16 müraciət layihə sənədlərinin hazırlanması mövzusunda olub. Müraciətlərin 1500-ə yaxını müxtəlif xarakterli digər məsələləri əhatə edib. Demək olar ki, regionlar üzrə edilmiş müraciətlər xaraktercə Bakı şəhəri, Abşeron rayonu və Sumqayıt şəhəri üzrə eyni olub. Cari ilin birinci yarısında ən çox müraciət havaların qarlı-şaxtalı keçdiyi fevral ayına təsadüf edib(1671 müraciət).

"Azəriqaz" İB-nin "qaynar xətt"inə edilən bütün müraciətlər qeydə alınaraq, Birliyin müvafiq struktur bölmələri tərəfindən araşdırılıb və problemlər öz həllini tapıb.

**BƏXTİYAR**

# Elmar Məmmədyarov: “ATƏT-in Minsk Qrupunun fəaliyyətindən narazıyıq”

“BU GÜN MÜNAQİŞƏNİN HƏLLİNDƏ AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA ETİMADIN BƏRPA EDİLMƏSİ MÜHÜM YER TUTUR”

*(Əvvəli 1-ci səh.)*



Yüksək rəqabət şəraitində keçən 17 turdan sonra ölkəmiz beynəlxalq ictimaiyyətin etimadını qazanaraq, BMT-nin 155 üzv dövlətinin dəstəyini əldə edib. SSRİ-nin dağılmasından bu günədək Azərbaycan bu mötəbər quruma qeyri-daimi üzv olan Cənubi Qafqaz və Mərkəzi Asiya regionundan ilk postsovet ölkəsidir. Azərbaycan ilk dəfə olaraq, 2012-ci ilin may ayında bu mötəbər təşkilata bir ay müddətinə sədrlik edib. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi “biz Təhlükəsizlik Şurasında, ilk növbədə, beynəlxalq hüququ və ədaləti müdafiə edəcəyik və müdafiə edirik”.

Bu qələbə Azərbaycanın qısa müddət ərzində balanslaşdırılmış, çoxşaxəli və məqsədyönlü xarici siyasətinin həyata keçirilməsi nəticəsində əldə etdiyi yüksək nailiyyətlərinin əsl göstəricisi və onun həm regionda, həm də beynəlxalq arenada artan nüfuzunun, qlobal proseslərdə yaxından iştirakının və eyni zamanda sülhün və əmin-amanlığın bərpa edilməsinə verdiyi töhfəsinin bariz nümunəsidir.

Bununla yanaşı aparılan məqsədyönlü və səmərəli diplomatik fəaliyyətin nəticəsi olaraq, Azərbaycan Respublikası 26 may 2011-ci il tarixində İndoneziyanın Bali şəhərində Qoşulmama Hərəkatının bütün üzvlərinin dəstəyini qazanaraq, 16-cı Nazirlər Konfransında hərəkatın üzvü seçilib. Qoşulmama Hərəkatına tam hüquqlu üzv olan Azərbaycan Respublikası Hərəkatın prinsiplərinə və məqsədlərinə bağlı olduğunu bəyan etdi. Hərəkatın bir illik üzvlüyü müddəti ərzində ölkəmiz bu təşkilatın tam dəstəyini əldə edib.

Azərbaycanın Meksikada keçirilən “Böyük iyirmiliyin” (G-20) üzvü olan ölkələrin Xarici İşlər Nazirlərinin işçi toplantısına dəvət olunmasını isə növbəti uğur kimi qiymətləndirmək olar. Bu, dünyanın inkişaf etmiş ölkələrinin Azərbaycana olan marağının artmasının və ölkəmizin regiondakı liderliyinin göstəricisidir.

Ölkəmiz həmçinin, YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin vitse-prezidenti və bu təşkilat çərçivəsində digər rəhbər vəzifələrə seçilərək üzv ölkələrin tam dəstəyini əldə edib.

Qeyd edilən diplomatik uğurlarımız Azərbaycan Respublikası tərəfindən həyata keçirilən xarici siyasətin təsir qüvvəsini və tarazlılığını bir daha təsdiq edir. Eyni zamanda, əldə edilmiş nəticələr qarşımıza növbəti yeni vəzifələr qoyur və Azərbaycanın uzunmüddətli maraqlarının reallaşması baxımından yeni imkanlar açır. Ölkəmizin nüfuzunu və təsir imkanlarını daha da artırmaq, əldə edilmiş mövqelərdən və qazanılmış diplomatik potensialdan effektiv şəkildə istifadə etmək qarşımıza qoyulan başlıca vəzifələrdəndir.

***— Dünya ictimaiyyəti Ermənistan — Azərbaycan münaqişəsinin həllinə münasibətdə passiv mövqe nümayiş etdirir. Azərbaycanın dünya ictimaiyyətindən bu istiqamətdə gözləntiləri nələrdir?***

— Məlum olduğu kimi Ermənistan — Azərbaycan münaqişəsinin nizamlanması ilə bağlı ölkəmizin mövqeyinin güclü hüquqi əsasları mövcuddur. Beynəlxalq təşkilatlar Ermənistanın işğalçı ölkə olduğunu, azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtması və həmçinin işğal olunmuş ərazilərin Azərbaycanın nəzarətinə qaytarılmasının tərəfdarı olduqlarını qərar və qətnamələrdə əks etdirirlər. Təbii ki, bu bizim üçün yetərli deyil, Ermənistan sülhə, beynəlxalq təşkilatların qərarlarına və ən önəmlisi, beynəlxalq hüquqa hörmət etməyə məcbur edilməlidir. Əlbəttə ki, Azərbaycan diplomatiyasının qarşısında duran ən ümdə və prioritet məsələ, Ermənistan-Azərbaycan münaqişəsinin həllidir. Ölkə başçısının rəhbərliyi altında Azərbaycan diplomatiyasının səyləri bu istiqamətə yönəlibdir. Azərbaycanın işğal olunmuş əraziləri üzərində suverenliyinin bərpa edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi üçün sülh danışıqları davam etdirilir. Lakin ATƏT-in Minsk Qrupunun 20 illik vasitəçilik fəaliyyətinin nəticəsiz qalmasından narazıyıq. Azərbaycanın torpaqları hələ də işğal altındadır və 1 milyona yaxın qaçqın və məcburi köçkünlərimiz öz doğma tarixi torpaqlarına hələ də qayıtmayıblar. Status-kvonun davam etməsi regionda qeyri-müəyyən və gözlənilməz təhlükəli şəraitin davam etməsi üçün şərait yaradır. ATƏT-in Minsk Qrupuna üzv ölkələrin başçıları aydın şəkildə regionda status-kvonun mövcudluğunun qəbuledilməz olduğunu bəyan ediblər. Üç həmsədr ölkə tərəfindən tərtib edilmiş yenilənmiş Madrid Prinsipləri adlanan təklif tərəflərə təqdim edilib və bununla əlaqədar Azərbaycan danışıqları davam etdirməyə, o cümlədən Hərtərəfli Sülh Sazişi üzərində çalışmağa başlamağa hazır olduğunu bəyan edib. Təəssüf ki, bu təklif Ermənistan tərəfindən rədd edilmişdir. Bu gün münaqişənin həllində Azərbaycan ilə Ermənistan arasında etimadın bərpa edilməsi mühüm yer tutur. Bunu əldə etmək üçün bir çox cəhdlər göstərilməlidir.

***— Azərbaycan xarici ölkələrdə diplomatik nümayəndəliklərinin sayını sürətlə artırır. Bu proses nəyə xidmət edir?***

— Hazırda xarici ölkələrdə Azərbaycanın 70-dən artıq diplomatik nümayəndəliyi fəaliyyət göstərir. Bu nümayəndəliklər ölkəmizin milli maraqlarının təmin olunmasında, xarici siyasətin həyata keçirilməsində, ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsində, eləcə də respublikamızın xarici ölkələrdə təbliği, xarici ölkələrdə yaşayan Azərbaycan Respublikası vətəndaşlarının və soydaşlarımızın hüquqlarının müdafiə edilməsi işində öz üzərilərinə düşən vəzifələri icra edirlər.

Ölkəmizin təbliğatı istiqamətində böyük işlər görülür. Bura mədəni tədbirləri, müxtəlif nəşrləri, sərgiləri, akademik toplantıları və digər təşəbbüsləri aid etmək olar. Gənc ölkə kimi Azərbaycanın təbliği və dünya ictimaiyyətinə tanıtdırılması məqsədilə xarici ölkələrdəki nümayəndəliklərimizlə yanaşı soydaşlarımız və Azərbaycanı sevən şəxslər birgə çalışmalıdır.

***— Azərbaycanın regional siyasətdəki mövqeyində dəyişiklik varmı?***

— Ölkəmiz strateji bir coğrafiyada yerləşir. Azərbaycan məlum səbəblərə görə Ermənistan istisna olmaqla, bütün qonşuları ilə münasibətlərini dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və bir-birinin daxili işlərinə qarışmama prinsipləri əsasında qurub. Regionun gələcəyi naminə münasibətlərin bu prinsiplərə söykənərək davam etdirilməsi çox mühümdür və qarşılıqlı şəkildə faydalıdır. Bütünlükdə, Azərbaycanın xarici siyasəti həm çoxtərəfli, həm də ikitərəfli müstəvidə əməkdaşlığın dərinləşməsinə hesablanıb.

Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan artıq investisiya qəbul edən ölkədən investisiya ixrac edən ölkəyə çevrilib. Bu gün Azərbaycan sərmayələrinin əsas hədəfləri də elə məhz region ölkələridir və Türkiyə ilə Gürcüstanda həyata keçirdiyimiz nəhəng layihələr bunun bariz göstəricisidir. Bu istiqamətdə fəaliyyətimiz daha intensiv xarakter alacaqdır ki, bunu da ölkəmizin ilbəil artan iqtisadi qüdrəti söyləməyə əsas verir.

Ermənistana gəldikdə isə vurğulamalıyam ki, təəssüf ki, Ermənistan öz işğalçı siyasəti ilə hələ də özünü bütün regional layihələrdən təcrid etməkdə davam edir. Ermənistan öz silahlı qüvvələrini Azərbaycanın işğal altında olan ərazilərindən çıxarmalıdır ki, münaqişənin nizamlanması prosesində irəliləyiş əldə olunsun. Ermənistan rəhbərliyinin qeyri-konstruktiv yanaşması həm regionun gələcəyinə, həm də bu ölkənin öz gələcəyinə belə mənfi təsir göstərir.

# “Ermənistana investisiyanın gəlməsi üçün erməni qoşunları Azərbaycan ərazilərindən çıxarılmalıdırlar”

***MÜBARİZ ƏHMƏDOĞLU:*** “QARABAĞ ƏRAZİSİNDƏ AZƏRBAYCAN VƏ ERMƏNİSTAN İŞ ADAMLARININ GÖRÜŞÜ AZƏRBAYCANIN ERMƏNİSTANA İNVESTİSİYASI ÜÇÜN YOL AÇA BİLƏR”



Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı verilən bəyanatları şərh edib. Politoloq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı verilən bəyanatların və onların əhatə etdiyi mövzuların sayının artdığını bildirib. Onun sözlərinə görə, münaqişənin sülh yolu ilə həlli istiqamətində bəzi ideyalar ortalığa qoyulsa da, onlar dərhal unudulur. O, Ermənistan prezidentinin bir neçə gün öncə dilə gətirdiyi “ağıllı kompromis” termininin artıq unutduğunu deyib: “Brüsseldə Qarabağ münaqişəsinin tənzimlənməsində “ağıllı kompromis”dən danışan Ermənistan prezidenti Serj Sarkisyan cəmi bir neçə gündən sonra “ağıllı kompromis” terminini unutdu. Son zamanlar Dağlıq Qarabağda yaşamış azərbaycanlılarla orada yaşayan ermənilərin dialoqunun qurulması istiqamətində ideyalar dəstək tapmağa başlayıb.

Dağlıq Qarabağın faktiki rəhbərlərinin siyasi müzakirələr aparılmadan Dağlıq Qarabağ erməniləri ilə Dağlıq Qarabağ azərbaycanlılarının dialoqunun qurulmasına, azərbaycanlıların məzarlıqlar və bu sıradan olan digər abidələri ziyarət etməsinə razılaşması ilə bağlı müəyyən məlumatlar dövriyyəyə buraxılıb. Qarabağın faktiki rəhbərliyi orada yaşamış azərbaycanlıların öz yerlərinə qayıtmasına sözdə razılıqlarını bildiriblər. Bunun üçün həmin azərbaycanlılar Dağlıq Qarabağ “vətəndaşlığını” qəbul etməlidir. Ermənilərin yalan uydurub, sonradan öz yalanlarının əsirinə çevrilməsi köhnə adətləridir. Məhz belə adətlərinə görə də nəinki Dağlıq Qarabağda, hətta Ermənistanda dövlət qura bilmədilər. Dünya ermənilliyi gücünü itirir. Ona görə də səslənmiş fikirlərə Dağlıq Qarabağı erməniləri ilə azərbaycanlıları arasında dialoqun qurulmasına informasiya təminatı kimi baxmaq daha düzgündür”.

Politoloqun fikrincə, Dağlıq Qarabağın dialoq məkanına çevrilməsi ermənilər üçün faydalıdır: “Dağlıq Qarabağın dialoq məkanına çevrilməsi, ilk növbədə, ermənilər üçün faydalıdır. 20 il Qarabağsızlığa dözmüş Azərbaycan 1-2 il də dözə bilər. Ermənistan Qarabağı işğal etməklə özü üçün bədbəxtliklər sandığının ağzını açdı. Ermənistan xarici borclarına qulluq üçün ildə 400 milyon dollar pul xərcləməlidir. Gələn ildən Rusiyanın qazın qiymətini qaldırması Ermənistan büdcəsi üçün 200 milyon dollar əlavə xərc deməkdir. Ermənistan büdcəsinin digər xərclərini nəzərə almasaq belə, ildə 600 milyon dollar əlavə xərc Ermənistanın 2 milyard dollarlıq büdcəsini çökdürəcəkdir”.

Daha sonra Avropa İttifaqının Ermənistana 1,5 milyard avro kredit ayırmaqdan imtina etməsinin səbəblərinə toxunan M.Əhmədoğlu bunları söyləyib: “Avropa İttifaqının Ermənistana 1,5 milyard avro kredit ayırmaqdan imtina etməsinin səbəblərindən biri də Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində tərəqqinin olmamasıdır.

İndi Ermənistan kredit üçün Rusiyaya yalvarır, 800 milyon dollar kredit götürmək istəyir. Ermənistanın kredit ehtiyacı 800 milyon dollardır. Avropa İttifaqından 1,5 milyard avro kredit götürən Ermənistan 800 milyon dollardan artıq hissəsini Ermənistan ərazisindəki Rusiyanın iqtisadi obyektlərini geri qaytarmağa xərcləyəcəkdi. Rusiya bunu başa düşüb və indi böyük sürətlə Ermənistan iqtisadiyyatının digər sahələrini də öz əlinə keçirmək istəyir.

4,5 milyard dollar dövlət borcu olan Ermənistanın aldığı yeni borc onu yalnız bir il sevindirə bilər. Sonra yenə də borc dilənməyə məcbur olacaqdır. Ermənistanın iqtisadiyyatı üçün investisiya lazımdır”.

Azərbaycanla müharibə vəziyyətində olan Ermənistana heç kim investisiya qoymayacağını bildirən politoloq bunun çox riskli olduğunu qeyd edib: “Ermənistana investisiyanın gəlməsi üçün Ermənistan Azərbaycanla münasibətlərini normallaşdırmalıdır; Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində reall addımlar başlanmalıdır. Bunun üçün ermənilər qoşunlarını Azərbaycan ərazilərindən çıxarmalıdırlar. İlk növbədə, erməni qoşunlarının Kəlbəcər və Laçından çıxması lazımdır. Dağlıq Qarabağ erməniləri ilə azərbaycanlıların görüşməsi, Dağlıq Qarabağın dialoq ərazisinə çevrilməsi, Qarabağ ərazisində Azərbaycan və Ermənistan iş adamlarının görüşü Azərbaycanın Ermənistana investisiyası üçün yol aça bilər. Azərbaycanlıların Dağlıq Qarabağa qayıtmasına təminatlı şərait yaradılmalıdır. Ermənistana gedən investisiyaların yolu buradan keçir”.

**AQİL**

# Bahar Muradova: “Müxalifətin “vahid namizəd” axtarışının müsbət nəticələnəcəyinə ümid çox azdır”



“Konkret olaraq bu şəxslər- İsa Qəmbər, Rəsul Quliyev, Lalə Şövkət və Əli Kərimli ətrafında müzakirələrin aparılmasının tərəfdarı deyiləm. Mövcud ictimai-siyasi mühitə, siyasi reallıqlara, elektoratın mövqeyinə hansısa bir təsiri olmayan şəxslər ətrafında bu yöndə diskussiyalar aparmaq məqsədəuyğun və məntiqli görünmür”. Bu fikirləri mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, Milli Məclis (MM) sədrinin müavini Bahar Muradova Müsavat Partiyasından İsa Qəmbərin, AXCP-dən Əli Kərimlinin, ALP-dən Lalə Şövkətin, ACP-dən isə Rəsul Quliyevin qarşıdan gələn 2013-cü il prezident seçkilərində müxalifətin vahid namizədi kimi təqdim olunmasına münasibətini bildirərkən dilə gətirib. Vitse-spikerin dediyinə görə, çox zaman cəmiyyəti süni olaraq bu şəxslər barədə düşünməyə yönəldirik ki, bu da düzdün deyil. B.Muradova iddia edib ki, yekcins, vahid mövqeli olmayan müxalif düşərgənin “vahid namizəd” axtarışı və onun da müsbət nəticələnəcəyinə ümid çox azdır: “Onlar özləri də bilirlər ki, çox perspektivsiz bir işlə məşğuldurlar. Bu, yəqin ki, alınmayacaq. Alınıb-alınmayacağı da sözün düzü, məni bir o qədər düşündürmür. Çünki bu düşərgə, onun elektoratı o qədər məhdud saydadır ki, onların bir və ya çox namizədin ətrafında birləşməsinin özü də bu məsələni həll etmir, o cümlədən, ictimai-siyasi mühitə, seçicilərin mövqeyinə, onların özünüifadə zamanı verəcəkləri qərara hansısa təsir göstərmir. Ona görə də bu məsələ ilə bağlı bu qədər böyük diskussiyaların açılması süni şəkildə bu şəxsləri gündəmə gətirməkdən başqa bir şey deyil”.

Vitse-spiker eyni zamanda bildirib ki, heç onların gündəmə gəlməsi də onu nə qorxudur, nə təşvişə salır: “Çünki bu olmasa, başqa bir məsələni tapıb, onun ətrafında bu adamlar özlərini hər zaman göstərməyə çalışırlar. Amma daha yaxşı olardı ki, real, həqiqətən insanların tələblərinə, fikirlərinə, onların mövqelərinə uyğun gələ biləcək şəxslər barəsində fikir mübadiləsi aparılsın, əgər beləlǝri də varsa. Beləlləri varsa, meydanlara çıxsınlar və insanlar da öz mövqeyini bildirsinlər. Yoxsa, süni şəkildə bütün mətbuat orqanları öz ruporlarını bu şəxslər ətrafında müzakirəyə yönəltdikcə, digərlərinin meydana çıxması imkanları məhdudlaşır və biz süni şəkildə insanların şüuruna, fikirlərinə bu şəxsləri bir növ yeridirik. Ona görə mən bu yöndə diskussiyaların açılmasının tərəfdarı deyiləm. Kim nə istəyir, etsin, qanun çərçivəsində fəaliyyətini göstərsin. İstəyir, birləşsin, istəyir, ayrılsın, istəyir, parçalansın, yəni, bu, onların öz işidir. Ən əsası odur ki, seçkidə iştirak edəcək namizədlər zamanın və seçicilərin fikirlərinin nəbzini tuta bilsinlər”.

B. Muradovanın bildirdiyinə görə, seçicilərin nəbzini tuta bilənlər uğur qazanacaq, tuta bilməyənlər isə bu günkü məhdud çərçivədə fəaliyyət göstərən bir neçə şəxsin əldə etdiyi uğursuzluğun davamını gözləyirlər və ya gözləyəcəklər: “Bu, lazımsız, məqsədə və nəticəyə yönəlməyən müzakirələr, diskussiyalar əslində söz oyunundan başqa bir şey olmayıb, özləri-özlərini aldatması ilə nəticələnir. Biz hər zaman bunu görmüşük”.

**KAMİL**

# Jalə Əliyeva: “Bəzi türk cümhuriyyətlərində hələ də “ruslaşma” qalmaqdadır”

“Türk cümhuriyyətlərinin ortaq ali təhsil müəssisəsinin-universitetinin yaradılması üçün buna tək Türkiyə və Azərbaycanın deyil, türkcə danışan bütün ölkələrin razılığı, hazırlığı olmalıdır”. Bunu mətbuata açıqlamasında millət vəkili, filologiya elmləri doktoru Jalə Əliyeva dilə gətirib. Millət vəkilinin qeyd etdiyinə görə, bu məsələ, ideya nə xoşməramlı və vacib olsa da, onun mümkünləşməsi indiki şərtlər və reallıqlar daxilində bir qədər çətindir: “Burada bir məqamı xatırlatmaq yerinə düşər. Bildiyiniz kimi, qardaş Türkiyənin, Azərbaycanın və digər iki türk cümhuriyyətinin təsisçiliyi, iştirakı ilə TürkPA quruldu və fəaliyyətə başladı. Ancaq çox təəssüflər olsun ki, gözlənildiyinin əksinə olaraq, TürkPA-ya türkcə danışan bəzi ölkələr bir o qədər də həvəslə gəlmədilər, daha doğrusu, Özbəkistanla Türkmənistan bu quruma qoşulmaqdan açıq şəkildə imtina etdilər. Düşünürəm ki, bunun da birinci səbəbi həmin o ölkələrin illərdən bəri həddən artıq “ruslaşma”sıdır. Bununla belə, uzun illər eyni — sovet məkanında birgə yaşamasına baxmayaraq, Azərbaycan həmin türk cümhuriyyətlərindən çox fərqli olub. Yəni, Azərbaycan bu illər ərzində də əslinə, kökünə, mənəviyyatına sadiq qalıb. Amma təəssüf ki, digər türkcə danışan ölkələrdə təzyiq daha çox olub, “ruslaşma” daha çox gedib. Ona görə də görünür, onlarda ilk öncə maarifləndirmə məsələsini gücləndirmək, o “qafa”nın dəyişdirilməsinə nail olmaq, onu yıxmaq, sonra o biri məsələlərə baxmaq lazımdır”.

J.Əliyeva eyni zamanda deyib ki, əgər bu günə qədər türkcə danışan ölkələrin zirvə toplantısında Orta Asiyadan gələn nümayəndələr, həmin ölkələrin rəhbərləri rus dilində danışırlarsa, bu o deməkdir ki, hələ problem var. “ Yadınızdadırsa, bu ilin əvvəllərində Qırğızıstan prezidentinin Azərbaycan parlamentində çıxışı oldu və o, nə qədər alqışla qarşılandı. Çünki öz dilində danışdı, azəri türkcəsində danışdı, Türkiyə türkcəsində danışdı. Çox qısa olaraq, ruscaya məcburi yer verdi. Yəni, bu, alqışlanan bir addım idi və həmin ölkələrdə, düşünürəm ki, o aşama, o mərhələ keçdikdən sonra digər məsələlər də öz həllini tapa biləcək. Ancaq bütün hallarda türk cümhuriyyətlətinin ortaq universitetinin yaradılması vacibdir, əhəmiyyətlidir və zamanı gələndə bu məsələ də öz müsbət həllini tapa bilər”-deyə, millət vəkili sonra sözlərinə əlavə edib.

**KAMİL**

# Zərdabi Mətbuat Mərkəzi yeni layihənin icrasına başlayıb

Zərdabi Mətbuat Mərkəzi (MM) cari ilin aprel ayından yeni layihənin icrasına başlayıb. Zərdabi MM-in sədri Rəhim Hüseynzadə bu barədə mediaya açıqlamasında belə deyib: “Layihəmiz “Bank-kredit məsələləri Azərbaycanın kütləvi informasiya vasitələrində: mövcud durum və peşəkarlığın artırılması yolları” adlanır. Demək olar diqqətdən kənarda qalan mövzuya üz tutmağımız monitorinqlərimizdən, sorğularımızdan qaynaqlanır”.

R.Hüseynzadə monitorinqin ölkənin 24 aparıcı, ictimai fikrə təsir göstərən qəzetini, 7 informasiya agentliyini əhatə etdiyini və 3 ayın nəticələrinə yekun vurulduğunu bildirib. Apreldə qəzetlərin ümumilikdə 118, mayda 145, iyunda 152, informasiya agentliklərinin müvafiq olaraq 82, 169 və 178 belə material təqdim etdiyinə toxunan mərkəz sədri həm yazıların sayında, həm də peşəkarlıq xüsusiyyətlərində nəzərə çarpacaq müsbət irəliləyişlər olduğunu vurğulayıb. Nəticədə mayda ümumi materialların sayı aprelə nisbətdə artaraq 200-dən 314-ə çatıb. İyunda isə 330-a bərabər olub. Ümumi artımda informasiya agentliklərinin payı daha çoxdur. Bu özünü aprelə nisbətən mayda daha qabarıq birüzə verib. Agentliklərin apreldə 169 material təqdim etdiyinə toxunan mərkəz sədri birinci ayla fərqin 2 dəfədən də çox olduğunu deyib (82-169). İyunda isə materialların cəmi 178-ə bərabər olub. Lakin İA-ların materialları yanlız informativ olmaları ilə fərqlənir. Onlar analitik yazılara və ya mütəxəssis məktublarına yer ayırmayıblar. Ümumiyyətlə, sonuncu istiqamətə gəldikdə deyə bilərik ki, mətbu vasitələrin bank-kredit sahəsinə dair mütəxəssis məktublarından korluq çəkməsi aşkar görünür.

Ümumilikdə qəzetlərə gəldikdə ən çox material təqdim edən “Ekspress” (45), “Bakı xəbər” (42), “Mövqe” (36) ilk üçlüyü tutur. Lakin “Bakı xəbər” (28), “Mövqe” (25), “Yeni Müsavat” (21) qəzetləri analitik yazıların sayına görə digərlərini üstələyirlər. “Zerkalo”, “Ekspress”, “Bizim yol”, “Üç nöqtə”, “Azadlıq”, “Paralel” qəzetləri isə təqdim olunmuş bu istiqamətli materialların sayına görə sonrakı yerləri tuturlar.

İnformasiya agentliklərində 3 ayın yekununa görə “Trend” 150, “Azəri-Press” (APA) 112, “Salamnyus” 55, “Milli.az” 47, “Azadinform” 36 materialla ilk beşliyi bölüşdürürlər.

R.Hüseynzadə sonda qeyd edib ki, monitorinq KİV-lərimizdə sahədən müntəzəm və dolğun yazan bir sıra jurnalistlərin adlarını da müəyyənləşdirib. “İyulda mövzu ilə bağlı dəyirmi masa keçirməyi planlaşdırmışıq. Eyni zamanda sahədən fəal yazan jurnalistlərlə təlimlərin keçirilməsini nəzərdə tutmuşuq. Planımıza kütləvi informasiya vasitələri ilə yanaşı, sahəni peşəkarlıqla işıqlandıran jurnalistlərin mükafatlandırılması da daxildir”.

# Bakıda Fransanın milli bayramı qeyd olunub

Fransanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı — 14 iyul Bastiliyanın alınması günü münasibətilə rəsmi qəbul təşkil edib.

Azərbaycanın və Fransanın dövlət himnlərinin səslənməsi ilə başlanan mərasimdə çıxış edən Fransanın Azərbaycandakı səfiri Paskal Mönye ölkəsinin inkişaf yolundan danışıb, iqtisadi və mədəni sahələrdə böyük tərəqqiyə nail olunduğunu vurğulayıb.

Diplomat dost ölkələr olan Azərbaycan ilə Fransa arasında getdikcə genişlənən əlaqələrdən məmnunluğunu bildirərək qarşılıqlı səfərlərin, yüksək səviyyəli görüşlərin və danışıqların ikitərəfli münasibətlərin inkişafına əlverişli zəmin yaratdığını qeyd edib. Son illərdə ölkəmizin sürətli inkişafından danışan P.Mönye Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsini ölkəmizin böyük uğuru kimi dəyərləndirib. Azərbaycanın dinamik inkişafını qeyd edən səfir ölkələrimiz arasında siyasi, iqtisadi münasibətlərin, habelə elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Maliyyə naziri Samir Şərifov əlamətdar gün münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevin təbrikini, fransız xalqına sülh, əmin-amanlıq və firavanlıq arzularını çatdırıb. Azərbaycan ilə Fransa arasında əlaqələrin dərin tarixi köklərinin olduğunu deyən nazir dost ölkənin tarixindən söz açıb və Avropa tarixinin və mədəniyyətinin formalaşmasında Fransanın vacib ölkələrdən biri olduğunu diqqətə çatdırıb.

Ölkəmizin Fransa ilə əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini vurğulayan S.Şərifov, bu münasibətlərin inkişafında ulu öndər Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin əvəzsiz xidmətləri olduğunu vurğulayıb. Bu il ölkələrimiz arasında diplomatik əlaqələrin yaradılmasının 20-ci ildönümünün tamam olduğunu vurğulayan S.Şərifov, münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini diqqətə çatdırıb.

**S.MÜRVƏTQIZI**

**"Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi" istiqaməti üzrə**

# Zərdabinin 170, milli mətbuatımızın 137 illiyi Zərdab və Gəncədə qeyd edildi








İyulun 14-də milli mətbuatımızın banisi Həsən bəy Zərdabinin 170 illik yubileyi və Azərbaycan milli mətbuatının 137 illiyi münasibətilə media rəhbərləri dahi mütəfəkkirin doğma yurdu Zərdab və Gəncə şəhərlərində səfərdə olublar.

Səfər gedişində Zərdabda ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edən KİV təmsilçiləri H.Zərdabinin adını daşıyan mədəniyyət evinin qarşısında onun heykəli önünə toplaşıblar.

Zərdab rayon icra hakimiyyətinin başçısı Lütvəli Babayev qonaqları cəfakeş ziyalı və maarifçi Həsən bəyin doğma yurdunda salamlamaqdan məmnunluq duyduğunu bildirib. O deyib ki, milli mətbuatımızın banisi ilə bağlı mərasimin 14 iyul tarixinə — ulu öndər Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlməsinin 43-cü ildönümünə təsadüf etməsi bayram əhval-ruhiyyəsinə xüsusi rəng qatır. H.Zərdabi ruhuna etiramın hər zaman mətbuata göstərilən dövlət qayğısı nümunələri ilə müşaiyət edildiyini vurğulayan icra başçısı Prezident İlham Əliyev tərəfindən imzalanmış "Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında" sərəncamı bu mənada əhəmiyyətli sənəd kimi dəyərləndirib.

O, rayonda Zərdabi təfəkkürünün məhsulu kimi meydana çıxan ilk mətbu qaranquşun müasir sələfi "Əkinçi" qəzetinin fəaliyyətinə böyük diqqət yetirildiyini bildirib. L.Babayev çıxışında Zərdab rayonunda aparılan quruculuq-abadlıq işləri barədə də məlumat verib.

Daha sonra KİV təmsilçiləri Həsən bəy Zərdabinin ev muzeyinə baş çəkiblər. Onlara böyük ziyalının həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən albom və fotoşəkillər barədə ətraflı məlumat verilib.

Media nümayəndələrinin Gəncəyə səfəri isə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarətlə başlayıb. Gəncə Mətbuat Evinin təməlqoyma mərasimində iştirak edən qonaqlara məlumat verilib ki, ümumi sahəsi 2600 kvadratmetr olacaq 4 mərtəbəli binanın bir il ərzində inşası nəzərdə tutulur. Mətbuat evi təkcə Gəncə deyil, bütövlükdə region jurnalistləri üçün mərkəz rolunu oynayacaq. Burada konfrans zalları, müxtəlif inzibati otaqlar, qonaq evi və mətbəə fəaliyyət göstərəcək. Binanın müasir texniki avadanlıqlarla təchizatı istiqamətində müvafiq işlər reallaşdırılacaq.

Daha sonra Azərbaycan Dövlət Aqrar Universitetində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının, Azərbaycan Mətbuat Şurasının və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə "Azərbaycan milli mətbuatı: Zərdabidən günümüzə" mövzusunda konfrans keçirilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov H.Zərdabi şəxsiyyətinin öz əməlləri ilə xalqı, milləti və vətəni üçün tam bir cəfakeşlik nümunəsi göstərdiyini vurğulayaraq böyük mütəfəkkirin miras qoyduğu milli mətbuatın tariximizin müxtəlif kəşməkeşli dövrlərində Zərdabi ənənələrinə sadiq qaldığını önə çəkib.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev ötən ilin oktyabrında həmin salonda Azərbaycanın dövlət müstəqilliyinin qazanılmasında medianın roluna dair gerçəkləşən toplantıda səslənən təşəbbüsün reallığa çevirildiyini — Gəncə Mətbuat Evinin tikintisinə başlanıldığını vurğulayıb, binanın inşasını şəhərin həyatında mühüm hadisə kimi dəyərləndirib.

Gəncədə aparılan geniş abadlıq-quruculuq işləri ilə bağlı statistik rəqəmlər səsləndirən E.Vəliyev tezliklə şəhərdə dahi Nizaminin 870, Məhsəti Gəncəvinin 900 illik yubileyləri kimi mühüm tədbirlərin reallaşdırılacağını diqqətə çatdırıb. Gəncədə dövlət filarmoniyasının, mərkəzi klinik xəstəxananın və digər iaşə obyektlərinin inşasının gerçəkləşdiriləcəyini deyib, tikintisi və təmiri başa çatdırılmış müəssisələr barədə məlumat verib.

E.Vəliyev rəhbər təyin olunduğu vaxtdan şəhərdə fəaliyyət göstərən mətbuat orqanlarına daim diqqət göstərdiyini vurğulayıb. "Gəncənin səsi" qəzetinin hazırda 5 min tirajla çıxdığını diqqətə çatdırıb. Eyni zamanda bildirib ki, milli mətbuatımızın 137-ci ildönümü ilə bağlı sözügedən nəşr "Hyundai Sonata" markalı xidməti avtomobillə təmin olunacaq.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov bildirib ki, ölkə ictimaiyyəti görkəmli maarifçi alim, pedaqoq, azərbaycanşünas, milli mətbuatımızın banisi, gözəl ziyalı H.Zərdabinin 170 illik yubileyi münasibətilə Gəncə şəhərində baş tutan konfransın simasında mühüm bir hadisəyə şahidlik edir. O, H.Zərdabinin Zərdab rayonundakı abidəsini və ev muzeyinin ziyarətilə başlanan marafonun məhz Gəncədə davamının xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Ə.Həsənov bu şəhərin Azərbaycan dövlətçiliyinin təməlində dayanan əsas nöqtələrdən biri olduğunu deyib: "Məhz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətinin mühüm dövrü Gəncə ilə bağlıdır. Dövlətçiliyimiz uğrunda Cavad xanın mübarizəsi burada başlayıb. Torpaqlarımızın birləşdirilməsi hərəkatında Gəncənin həmişə böyük rolu olub. Sözün həqiqi mənasında böyük azərbaycanlının ilk yubiley tədbirinin belə bir məkanda düzənlənməsi məhz bu sadalananlardan irəli gəlir".

Zərdabinin milli mətbuatımızın banisi olmaqla yanaşı, eyni zamanda azərbaycanlıların xalq və millət kimi formalaşmasında böyük rolunun olduğunu deyən Ə.Həsənov dahi mütəfəkkirin öz fəaliyyəti ilə ideya məktəbi formalaşdırdığını önə çəkib. O, hər bir toplumun belə adamların əməyi nəticəsində dünyada tanındığını vurğulayıb: "Həsən bəy Zərdabi o dövrdə ən ali məqsədli ziyalının edə biləcəyi işləri görüb. Ona görə də ümummilli liderimiz Heydər Əliyev hələ 1995-ci ildə Azərbaycanda milli mətbuatın ilk yubiley ənənəsini qoyaraq faktiki olaraq Həsən bəy Zərdabinin adını dövlət səviyyəsində əbədiləşdirdi. Həmin il 22 iyulun Azərbaycan Milli Mətbuat Günü kimi qeyd edilməsinə dair sərəncam imzaladı. Doğrudur, buna qədər də qeyri-rəsmi səviyyədə milli mətbuat günü qeyd edilirdi. Amma sənəd əlamətdar tarixin keçirilməsinin davamlı xarakter almasının əsasını qoydu".

İ.Əliyevin "Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında" 4 iyun 2012-ci il tarixli sərəncamı üzərində dayanan Ə.Həsənov bildirib ki, sənəd müvafiq qurumların üzərində dahi mütəfəkkirin həyat və fəaliyyətinin bir daha öyrənilməsi və təbliğini həyata keçirmək məsuliyyətini formalaşdırır.

Millət vəkili, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqov "Əkinçi"nin senzura ilə üzləşdiyini vurğulayaraq Azərbaycanda həmin məhrumiyyət mühitinin 123 il sonra, 6 avqust 1998-ci ildə ümummilli lider Heydər Əliyev tərəfindən aradan qaldırıldığını söyləyib. Azərbaycan dövlətinin eyni kursu davam etdirdiyini, təməli qoyulan Gəncə Mətbuat Evinin və digər əməli tədbirlərin timsalında azad sözə və müstəqil mətbuata böyük önəm verdiyini deyib.

"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu H.Zərdabinin Azərbaycan mətbuatının əsasını çox ağır şərtlər daxilində qoyduğundan söhbət açıb.

"Ayna-Zerkalo" qəzetinin baş redaktoru Elçin Şıxlı 1990-cı ilin 20 yanvar hadisəsindən sonrakı vəziyyət barədə məlumat verərək bildirib ki, həmin vaxt Azərbaycanda yeganə jurnalist təşkilatı olan Azərbaycan Jurnalistlər İttifaqı SSRİ Jurnalistlər İttifaqının tərkibindən çıxmaq haqqında qərarını məhz Gəncə şəhərində qəbul edib.

"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid çıxışına ötən ilin oktyabrında media nümayəndələrinin Gəncəyə səfərini və ondan sonra "Gəncədəki ruh" yazısını qələmə aldığını xatırlatmaqla başlayıb. O bildirib ki, həmin vaxt şəhər böyük tikinti meydançasını xatırladırdı: "Bu gün də işlər davam etdirilir. Gəncə tarixi ənənələrə söykənən görkəmini saxlamaqla yeniləşir və müasirləşir, ruh yaşadılır. Elə bilirəm ki, bu gün də həmin ruh bizimlədir. Həsən bəyin Zərdabda abidəsini ziyarət etdik, onun ev muzeyində olduq. Bu günə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təşəkkürümüzü bildiririk. Hesab edirəm ki, onun "Həsən bəy Zərdabinin 170 illik yubileyinin keçirilməsi haqqında" sərəncamının əsas cəhətlərindən biri də sənədlə milli mətbuatımızın banisinin doğum gününün dəqiq tarixi ətrafındakı mübahisələrə son qoyulmasıdır".

"Əkinçi"dən sonra Azərbaycanda qəzet təlatümünün yaşandığını, ictimai aktivliyin formalaşdığını deyən R.Məcid bütün bunların yekun nəticə etibarilə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirdiyini diqqətə çatdırıb.

Millət vəkili Jalə Əliyeva dahi mütəfəkkirin həyat və fəaliyyətinin müxtəlif dövrlərinə aid məlumatlar səsləndirib. Onun sözlərinə görə, H.Zərdabi haqqında danışmaq vətənini, torpağını sevən hər bir şəxs üçün mənəvi borcdur, mənəvi qidadır.

"Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu bildirib ki, Azərbaycanı birləşdirən dəyər olan böyük ziyalının — H.Zərdabinin ocağına, onun xatirəsinin işığına toplaşmaq ciddi bir hadisədir.

"Kaspi" qəzetinin baş redaktoru Natiq Məmmədli H. Zərdabi irsində iki qəzetin mühüm rol oynadığını vurğulayıb. O, bunlardan birinin onun özünün yaratdığı "Əkinçi", digərinin isə tarixi "Kaspi" qəzeti olduğunu deyib.

Konfransdan sonra Həsən bəy Zərdabinin 170 illik yubileyi və milli mətbuatımızın 137-ci ildönümünə həsr olunmuş tədbirlər planı Gəncə şəhərinin mədəniyyət və incəsənət ustalarının geniş konsert proqramı ilə davam etdirilib.

**Aqil LƏTİFOV**



**Səhifədəki material Azərbaycan Respublikasının Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun layihəsi üzrə çap olunub**

# *Tərlan Əhmədov:* "Biz cütün taleyini elə Bakıda həll etmək istəyirik"

## "Neftçi" klubunun baş məşqçi köməkçisi Tərlan Əhmədovun Qol.Az saytına müsahibəsi

***— "Zestafoni" ilə oyuna hazırlıq məqsədilə komandanızın keçirdiyi təlim-məşq proseslərindən razı qaldınız?***

— Bəli. Komandanın Böyükağa Hacıyev kimi baş məşqçisi var. Ö özü də yoxlama görüşlərindən razı qaldı. Buxarets və Zaqreb "Dinamo"larıyla yoldaşlıq görüşündə istədiyimiz oyunu ortaya qoyduq. Uşaqlar çox gözəl oyun nümayiş etdirdilər.

***— Heyətə cəlb etdiyiniz yeni transferlər barəsində nə deyə bilərsiniz? Ümumiyyətlə, bu futbolçulara güvənirsiniz?***

— Biz təkcə yeni transferlərə deyil, bütün heyət futbolçularına güvənirik. Hər birini "Neftçi"nin aparıcı futbolçuları hesab edirik. Çünki onların hamısı seçiliblər. Legionerlərə gəldikdə, onların oyunlarını izləmişik. Çox yaxşı təsir bağışlayıblar. Artıq komandaya və "Neftçi"nin oyun üslubuna uyğunlaşdıqlarını söyləmək olar. Bir sözlə, futbolçuların adaptasiya baxımından durumu normaldır. İnanıram ki, futbolçularımız meydanda bütün güclərini ortaya qoyacaqlar.

***— "Neftçi"nin qol silahı olan Bahadır Nəsimovun yoxluğunu yeni transfer çilili Kanales doldura biləcəkmi?***

— Birinci növbədə deyim ki, əvəzolunmaz futbolçu yoxdur. Hər halda hər bir hücumçunun özünəməxsusluğu var. Kanales səviyyəli hücumçu və Çili yığmasının futbolçusudur. Düşünürəm ki, oyunda Kanales özünü yaxşı tərəfdən göstərəcək. Bizim ona ümidlərimiz çoxdur.

***— Yeni transferlərinizin hamısını meydanda görə biləcəyik?***

— Ola bilsin ki, belə olacaq. Lakin bütün bunlara baş məşqçinin qərarından sonra aydınlıq gələcək. Ancaq çox güman ki, sabah (bu gün-red.) onlar meydanda olacaq.



***— "Zestafoni"ylə ilk qarşılaşmanı doğma meydanda keçirəcəksiniz. Şanslarınızı necə dəyərləndirirsiniz?***

— Bizim də fikrimiz odur ki, ilk qarşılaşmada inamlı qələbə qazanaraq bütün məsələni elə Bakıda həll edək. Öz meydanımızda çıxış etdiyimiz üçün çalışacağıq ki, oyunun taleyini ikinci görüşə saxlamayaq. Məqsədimiz tamaşaçılarımız qarşısında gözəl futbol nümayiş etdirməkdir. Komandayla birgə çox inanırıq ki, cütün taleyini ilk qarşılaşmada həll edəcəyik. Çünki istəyimiz həddindən artıq çoxdur.

***— Rəqibiniz "Zestafoni"nin hansı keyfiyyətindən daha çox ehtiyat edirsiniz?***

— Hər bir rəqibin güclü və zəif tərəfləri olur. Biz rəqibimizi yaxşı təhlil etmişik. Ancaq unutmaq lazım deyil ki, Çempionlar Liqasında zəif rəqib yoxdur. Hər biri öz ölkəsinin çempionu və güclüsü hesab edilir. Onların həm güclü, həm də zəif cəhətləri var. Lakin bunu mətbuata açıqlaya bilmərəm.

***— Təlim-məşq toplantısı zamanı komandanız təbii ot örtüyü olan meydançalarda çıxış edib. Oyun günü isə süni meydançada oynayacaqsınız. Bu, "Neftçi"nin çıxışına mənfi təsir göstərməyəcək ki?***

— Əslində komandanın istəyindən çox şey asılıdır. İstisna deyil ki, süni meydançanın komandamızın çıxışına mənfi təsiri olsun. Süni meydançalarda sürət və dəqiq ötürmələr problemi olur. Lakin sabah (bu gün-red.) fiziki və yaxşı psixoloji hazırlıqdan asılı olacaq. Hamımızda "Zestafoni" səddini keçəcəyimizə inam var.

**Əli HƏYATİ**

# *"Lex"in baş məşqçisi:* "Xəzər Lənkəran"dan çəkinmirik"

Avropa Liqasının II təsnifat mərhələsində "Xəzər Lənkəran"ın rəqibi olan Polşanın "Lex" klubunun baş məşqçisi Marius Rumak komandasının şanslarını dəyərləndirib.



Polşa mətbuatına danışan M.Rumak "Xəzər Lənkəran"dan çəkinmədiklərini bildirib:

"Xəzər Lənkəran" bizə tanış rəqibdir. Onlara hörmətlə yanaşırıq. Ancaq rəqibdən çəkinmirik. "Lex" iki il öncə Çempionlar Liqasının II təsnifat mərhələsi çərçivəsində Bakıda "İnter" klubunu 1:0 hesabı ilə məğlub etmişdi. Lakin cavab matçı çox gərgin alınmışdı. Artıq Azərbaycan klublarında inkişaf hiss olunur. Buna görə də səfərdəki oyunda çox diqqətli oynamalıyıq. "Xəzər Lənkəran"ın videoyazısını hələlik izləməmişəm. Bununla belə, onların bəzi oyunlarının videoyazısını əldə etmişik. Rəqibi yaxşı təhlil etməliyik. Əks təqdirdə bizə çətin olacaq. Üstəlik Azərbaycanda havanın Qazaxıstandan daha isti olması da bizə müəyyən çətinlik yaradacaq".

Qeyd edək ki, Lənkəran şəhər stadionunda keçiriləcək "Xəzər Lənkəran" — "Lex" matçı iyulun 19-da saat 20:00-da başlayacaq.

# *Yunis Hüseynov:* "Məndə "Lex"i keçəcəyimizə inam var"



"Hücumçumuz Branimir Subaşiç Avroliqanın hər iki qarşılaşmasında qol vurub. Lakin onunla kifayətlənmək fikrində deyilik. Futbolçu axtarışını davam etdiririk. Lakin istəmirik ki, transfer xatirinə futbolçu alaq. Məqsədimiz komandaya kömək edə biləcək səviyyəli futbolçu transfer etməkdir".

"Xəzər Lənkəran" klubunun baş məşqçisi Yunis Hüseynov Qol.Az saytının müxbiri ilə söhbətində belə deyib.

Komandaya yeni transferlərin mümkünlüyü haqda danışarkən Y.Hüseynov bildirib ki, Avropa Liqasında Polşa "Lex"inə qarşı keçiriləcək ilk, ya da uzağı təkrar qarşılaşmaya qədər hücumçu problemini həll edəcəklər.

"Lex" barədə danışarkən Y.Hüseynov deyib ki, bu komanda Azərbaycan klublarına çox tanışdır: "Mən onların oyunlarına da baxmışam. Polşa klubunun keçirdiyi bir neçə görüşün videoyazısı məndə var. Təkcə qalır rəqibimizin oyununu yaxşı təhlil etmək. Bundan sonra öz işimizi görəcəyik".

Y.Hüseynov qeyd edib ki, "Lex" keçiləsi rəqibdir: "Futbolda keçilməyən və məğlub olmayan rəqib yoxdur. Sadəcə, oyunu düzgün qurmaq lazımdır. "Lex"ə qalib gəlib, onu keçmək olar. Futbolda məğlub da olmaq olar, qalib də gəlmək. Ancaq nəsə məndə belə bir inam var ki, "Lex"i keçə biləcək qədər gözəl oyun nümayiş etdirəcəyik".

Y.Hüseynov rəqibin orta və hücum xəttlərinin yaxşı çıxış etdiyini söyləyib: "Bu komandanın bütün mövqelərində əla futbolçuları var. Ancaq istənilən güclü bir komandanın belə zəif nöqtəsi mütləq olur. İnşallah, oyunlarını yaxşı təhlil edərək, öz taktikamızı quracağıq".

**Əli HƏYATİ**

# *Blatter:* "2006-cı il dünya çempionatı satılıb"



FİFA prezidenti Yozef Blatter yenidən şok açıqlamaları ilə diqqət çəkib.

"Blick"ə danışan Blatter 2006-cı il dünya çempionatının ev sahibliyi hüququnun Almaniyaya satıldığını iddia edib:

"2018 və 2022-ci illərdə keçiriləcək dünya çempionatlarının Rusiya və Qətərə satıldığı haqda fikirlər hələ də səslənir. Ancaq mən 2006-cı il dünya çempionatının ev sahibliyi hüququnun Almaniyaya necə verildiyini xatırlayıram. Səsvermənin gedişində son dəqiqələrdə bir nəfər gözlənilmədən qalxdı və otağı tərk etdi. Mən isə o vaxta qədər hələ səs verməmişdim və bunu normal qarşıladım. Bununla da, səslər 10/10 bərabər olmaq əvəzinə 10/9 Almaniyanın lehinə oldu. Mənim burada kimisə günahlandırmaq niyyətim yoxdur. Sadəcə olaraq həmin vaxt nələr baş verdiyini deyirəm".

Qeyd edək ki, 2006-cı ildə keçirilən dünya çempionatında İtaliya milli komandası baş mükafata sahib çıxmışdı.

# "Milan" daha bir ulduz futbolçusu ilə yollarını ayırır



İtaliyanın "Milan" klubu daha bir ulduz futbolçusunu transferə çıxarıb. Milan təmsilçisi braziliyalı futbolçusu Robinyo ilə yollarını ayırmaq niyyətindədir. Bu məqsədlə "Milan" klubu ulduz futbolçusuna gələcək təklifləri dəyərləndirəcəyini açıqlayıb. 2014-cü ilə qədər "Milan"la müqaviləsi olan 28 yaşlı futbolçunun da komandadan ayrılmaq istədiyi bildirilir. Ancaq "Milan" rəhbərliyi hələlik Robinyonun transferi üçün ödənəcək təzminat məbləğini müəyyənləşdirməyib.

Qeyd edək ki, Robinyo ilə "Santos" və "Malaqa" klubları yaxından maraqlanır.

# Mourinyonun Maykon israrı davam edir



"Real" (Madrid) klubunun baş məşqçisi Joze Mourinyo "İnter"in müdafiəçisi Duqlas Maykonu transfer etməkdə israrlıdır.

"Sport Mediaset"in verdiyi məlumata görə, portuqaliyalı mütəxəssis Mayokunun transferi üçün rəhbərliyi razılığa gətirib. Madrid təmsilçisi braziliyalı futbolçunun keçidinə 8 milyon avro xərcləməyə hazırdır. Üstəlik Maykon "Real"da çıxış edəcəyi təqdirdə ilinə 4,5 milyon avro qazanacaq. 30 yaşlı futbolçunun "Real"ın təklifini müsbət qarşıladığı bildirilir.

Qeyd edək ki, 2006-cı ildən "İnter"in formasını geyinən Maykon keçirdiyi 245 oyunda 20 dəfə rəqib qapılarına yol tapıb.

**Materialları Anar Cəfərsoy hazırladı**

**Q□zet 1992-ci il noyabrın 17-d□n çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar □liyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2445
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA v□ "OLAYLAR"ın informasiyalarından istifad□ olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.